

*Orxan Aras 1969-cu ildə Türkiyənin İqdır şəhərində doğulub. Babaları vaxtilə Anadoluya Qarabağdan gəlib. Ərzurum Pedaqoji Məktəbini bitirdikdən sonra ədəbiyyat fakültəsində oxuyub, sonra Almaniyaya köçüb. Almaniyada ali iqtisadi təhsil alıb. Eyni zamanda Bohum şəhərində türkoloji dərslərə qatılıb. Yazarın ilk kitabı «Qarabağın göz yaşları» (şeirlər) 1990-cı ildə nəşr olunub. «Azərbaycan davamız» (1998), «Eşqlər daha ölmədi» (şeirlər) (2001), «Ayrılığın rəngi hüzn» (2002) İstanbulda nəşr olunub. Son kitabı «Almaniya mənə bir az sevgi ver» 2005-ci ildə Hamburqda alman dilində çapdan çıxıb.*

*Orxan Aras Almaniyada olduğu 1990-cı ildən bəri Azərbaycan türklərinin Avropada təşkilatlanması istiqamətində fəal iştirak edib. Avropada yaradılan ilk «Azərbaycanda Dayanışma Komitəsi»nin və «Avropa Azərbaycan Türkləri Federasiyası»nın qurulmasında və idarə edilməsində böyük xidmətləri olub.*

*Orxan Arasın Azərbaycan, Türkiyə, Almaniya, Hollandiya, Rusiya və digər ölkələrdə nəşr edilən müxtəlif qəzet və dərgilərdə ədəbi, siyasi və tarixi mövzularda saysız-hesabsız məqalələri dərc olunub. 1994-cü ildən Türkiyə Yazarlar Birliyinin üzvüdür.*

ORXAN ARAS

# Bir türk cəngavəri: İBRAHİM BOZYEL

Qısaboylu, arıq, qarayanız, qaynarbaxışlı, cəld, itiağıllı bir insan olan İbrahim Bozyel Türkiyənin ən ucqar bölgələrindən birində – İqdırda yaşayıb işləməsinə baxmayaraq, qəlbilə, düşüncələrilə, yaratdıqları ilə, toxunduğu mətləblər ilə bütün türk dünyasına məxsus idi. Yazının başlığında da qeyd etdiyim kimi, bir ədəbiyyatçı, bir hüquqşünas, bir elm adamı olmaqla bərabər heyrətediləcək enerjiyə, səbrə malik fədakar bir cəngavərdi. Türkiyənin İqdır kimi yoxsul bir şəhərində sadə vəkil işləyərkən Türk dünyasının müxtəlif bölgələrindən dəvət etdiyi ziyalılara Türkiyəni tanıtmaq və birəsrlik ayrılığın həsrətini unutdurmaq üçün onları şəxsi vəsaiti hesabına Türkiyə və Şimali Kıprısda gəzdirməsi, çox vaxt ailəsindən kəsərək imkanlarını bu iş uğrunda səfərbər etməsi onun cəngavərliyinin bariz nümunələrindəndir.

Hələ 1982-ci ildə görkəmli alim Yavuz Akpınarla əl-ələ verərək Türkiyə və Türk dünyası üçün ilk nümunə sayılan «Kardaş Edebiyyatlar» dərgisinin ən ağır yükünü çiyinlərinə alması məsləyi yolunda nə qədər cəfakeş olduğunu sübut edir.

İbrahim Bozyel 1952-ci ildə doğulmuşdur. 1950-ci illərdə Türkiyədə doğulmuş insanların çoxu ikinci dünya müharibəsindən sonra cəmiyyəti sarmış, bir az demokratik, bir az inqilabi, bir az da mütərəddid fikirlərin təsiri altında idi. İbrahim Bozyelın xarakterində də bu təsiri açıq-aşkar görmək mümkündü. İqdır kimi mühafizəkar və ucqar şəhərdə müasirliyi təmsil edən insanlardan biri də İbrahim Bozyeldi. Həyatı, davranışı və düşüncələri ilə Türkiyə cəmiyyətinin tərəqqipər-vər təbəqəsinin təmsilçisiydi. Şübhəsiz, bunda İstanbul Kabataş liseyi və İstanbul Hüquq fakültəsi kimi mütərəqqi təhsil ocaqlarında oxumasının da təsiri vardı.

Onun 1970-ci və 1980-ci illərin İqdırında və ya Türkiyəsində fərqli bir cığırla addımlaması bəzən diqqətdən yayınsa da, çoxluq tərəfindən açıq – örtülü şəkildə təqdir edilirdi. Qurduğu əlaqələr, cəmiyyətin müxtəlif təbəqələri ilə apardığı iş və araşdırmalar bəzən ona «solçu» damğası vurulmasına səbəb olurdusa, «sağların» ən radikal gənclərinin məhkəmə prosesinə qatılması da (çox vaxt təmənnasız) onun «sağçı» kimi suçlanmasına gətirib çıxarırdı.

Əslində o ideologiyanın əsiri olmayacaq qədər fəal və mütərəddid idi. Hüquqşünas olmasına baxmayaraq, İqdır liseyində tam 17 il fəlsəfə dərsi verməsi də buna sübutdur.

Hüquqşünas kimi məhkəmədən-məhkəməyə qaçan bu yorulmaz insanı İqdırın çeşidli kafelərində bəzən bir din xocasıyla, bəzən də maraqlı bir fəlsəfə tələbəsiylə möhkəm mübahisə edən görərdiniz. Kafeləri mübahisə və müzakirə məkanlarına çevirənlərdən biri deyil, məhz birincisi İbrahim Bozyel idi.

Xalq sənətinin həm vurğunu idi, həm də xalq sənətini peşəkar mütəxəssis dərəcəsində bilən və təbliğ edən bir ziyalı idi. İqdırda folklor qrupunu ilk dəfə İbrahim Bozyel qurmuşdu. Bu qrup sonradan Fransada keçirilən xalq oyunları yarışında birinci yeri tutmuş və o dövrdə baş nazir olmuş Turqut Özal tərəfindən Ankarada qəbul edilərək ayrıca mükafatlandırılmışdı.

İbrahim Bozyelin xalq sənəti sahəsindəki fəaliyyəti sadəcə oyun qrupu qurmaq və nümayiş etdirməklə tamamlanmırdı. İqdır və ətrafdakı aşıqlar, nağılbazlar, şifahi ədəbiyyatın təmsilçiləri onun dostlarıydılar.

İqdırda ilk teatrın açılmasında da İbrahim Bozyelin xidməti böyükdür. Heç bir teatr təhsili almamış insanlardan ibarət elə bir truppa yaratmışdı ki, bu truppa Azərbaycanda tamaşa verərkən professional aktyorlar xalq içindən çıxmış oyunçuların ifaçılığına heyran qalmışdılar.

Teatrın səhnə əsərləri, rejissor işi, kostyum seçimi üçün İbrahim Bozyel məsuliyyət daşıyırdı. Zehinlərdən silinməyən «Evimizə gəlin gəlir» və 1990-cı il 20 yanvar

faciəsindən bəhs edən «Qərənfillər ağlamasın» tamaşaları onun nə qədər istedadlı dramaturq olduğunu isbat edir.

İqdırda 20 yanvar Bakı soyqırımına qarşı ilk mitinqi təşkil edən, İqdırda ilk Azərbaycan dərnəyini yaradan da İbrahim Bozyel olmuşdur.

Türkiyədə hələ Novruz bayramı ətrafında mübahisələr başlamamışdan çox-çox əvvəl o, bu bayramın xüsusiyyətləri barədə son dərəcə maraqlı bir məqalə yazmışdı. «İqdır, Naxçıvan və Təbriz üçgeninde Nevruz gelenekləri» başlıqlı məqaləsi folklorşünas alimi mat qoyacaq qədər peşəkarlıqla qələmə alınmışdır.

1982-ci ildə bütün Türk dünyası ədəbiyyatını və ədəbiyyat xəbərlərini üç ayda bir Türkiyə oxucusuna təqdim edən mütəvazi, lakin çox fəal «Kardaş Edebiyyatlar» dərgisi nəşr edilməzdən xeyli əvvəl İbrahim Bozyel İqdırda Türk dünyası ədəbiyyatının ən yaxşı bilicilərindən və təbliğatçılarından biri kimi tanınmışdı. Çolpan, Abay, Çokay, Şəhriyar, Səhənd, Səməd Behrəngi, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Nəriman Həsənzadə, Məmməd Araz, Məmməd Aslan kimi şair və yazıçıların adları onun söhbətlərində tez-tez səslənirdi.

1984-cü ildə Məmməd Aslanın dəvəti ilə Azərbaycana gəlişi onun üçün dönüş nöqtəsiydi. Burada gördükləri və səfərdən aldığı təəssürat barədə yazdığı «Azərbaycan diyarından» kitabı, məncə, Türkiyə türkcəsində Azərbaycan haqqında ən oxunaqlı, ən məlumatlı və səmimi əsərlərdən biridir. O kitabda Azərbaycan insanından təbiətinə, şeirindən xalq əfsanələrinə qədər hər şey ən səmimi şəkildə təsvir edilmişdir.

İbrahim Bozyel sadəcə fikir adamı deyildi. O, eyni zamanda əməl adamı idi. Ermənilərin İqdırda törətdikləri həm maddi, həm də mənəvi soyqırımları Türkiyənin gündəminə gətirənlərdən biri idi. Ankara ilə Avropa arasında qalmışdı. Elə bir simpozium, toplantı olmazdı ki, İbrahim Bozyel orada iştirak etməsin.

Cəfər Qiyası ilə birgə yazdığı «Erməni Kültür terörü» əsəri böyük hay-küyə səbəb oldu. O əsərdə indi Ermənistana aid edilən işğal olunmuş ərazilərdə yer adlarının necə dəyişdirildiyi və tarixin necə saxtalaşdırıldığı faktları ortaya qoyulur.

Eylem adamı olduğunu təsdiqləyən faktlardan biri də erməni soyqırımlarının dəhşətlərinə şahid olmuş İqdırda erməni qətlinin qurbanlarının abidəsinin ucaldılması uğrunda göstərdiyi cəsarət və fədakarlıqdar. İqdırın simvoluna çevrilmiş və Ermənistandan da açıq-aydın görünən bu abidənin ideyavericilərindən biri İbrahim Bozyeldır.

1998-ci ildə 46 yaşında avtomobil qəzasında həlak olan bu dinclik, rahatlıq bilməyən igid fikir adamının səyi ilə İqdır və Türkiyənin böyük hissəsi Azərbaycanı, Azərbaycan ədəbiyyatını, Azərbaycan tarixini tanıdı. İbrahim Bozyelın ölümündən sonra belə İqdır bu məsələlərin mərkəzi olaraq qaldı və 1999-cu ildə İqdırda erməni məsələsində dünyanın ən öndə gələn Erix Feigl, prof. dr. Ramazan Mirzəoğlu, prof.dr C.Qiyasi, prof.dr Cevat Başaran, dos .dr. İsmayıl Hacıyev, prof.dr. Stefano Trinchese, dr.Erdal İlfer, prof.dr. Ənvər Konukçu, prof.dr. Mehmet Saray, prof. dr. Azmi Süslü kimi alimlərin qatıldığı simpozium keçirildi.

İbrahim Bozyel, mərkəz İqdır olmaqla, gah İstanbulda, gah Amsterdamda, gah Frankfurtda yorulmadan, şikayət etmədən Azərbaycanı, Türk dünyasını, Türk insanını, mədəniyyətini anlatdı. Hər çıxışından sonra işini bitmiş hesab etməyib yorulmadan ətrafına topalaşan gənclərə sadəcə elm adamı olmadığını, eyni zamanda bir qəhrəman, bir ruh adamı olduğunu göstərirdi. Lakin türk dünyası və ilk növbədə də hər şeyinə vurulduğu Azərbaycan ona layiq olduğu diqqəti göstərə bilmədi. Azərbaycan üçün barmağını tərpətməyən bəzi insanlar mükafatlar alarkən, şənlərinə təriflər deyilərkən, İbrahim Bozyelın adı belə xatırlanmadı. Sadəcə, Azərbaycan deyil, azərbaycanlı dostları belə, nədənsə, onu unutmuş kimi görünürlər.

Amma onun kiçik addımlarla İqdırdan başladığı hərəkat onun yetişdirdiyi gənclərin düşüncələrində gün keçdikcə daha da təzələnməkdə, inkişaf etməkdədir. Bu da yalançı şöhrətlərin, qeyri-səmimi dostların, saxta vətənsevərlərin bir gün mütləq silinib gedəcəyini, əsl ərənlərin əbədi olaraq yaşayacağını göstərməkdədir.

*Türkcədən tərcümə:*
**Arifə Arifqızı**